**UDC:** 070.; 930.85.
**LBC:** 76.02; 76.029
**MJ №** 267
10.33864/2617-751X.2025.v8.i2.57-66

# National-Ideological Views of Ahmet Ağaoğlu in the Newspaper "Hikmet"

**Mahir Garibov***

**Abstract.** The main goal of the newspaper "Hikmet", published in Istanbul at the beginning of the 20th century, was to contribute to the "revival of Islam" by defending human rights and freedoms, to achieve unity in the Ottoman and Islamic world, to expand the enlightenment movement, and to achieve religious unity. This was the theme of the articles of one of the main authors of the newspaper, Ahmed Ağaoğlu. In his world of thought and thought, in his works and articles, it is possible to see the concept of Islamist and Turkist among the intellectual movements such as Islamism, Turkism, and Westernism that formed in the Ottoman state after the Second Constitutional Monarchy. The formation of this unity, commitment to national-spiritual values, and loyalty to historical roots formed the basis of his creativity. Ağaoğlu firmly stated that the main and only element that builds the state and forms its foundation is the nation. The people have been considered the only source of power, and therefore, the people must have all the rights and opportunities to change the government. He called on the Turkish nation to achieve these rights by showing determination and will, and to establish a society and a national government governed by democratic principles. Ağaoğlu believed that the salvation of society lay in uniting around the ideas of "Turkish unity" and "Unity of Islam", and he mainly promoted the idea of national unity in his newspaper.

**Keywords:** History of the press, national press and democracy, Ahmet Agaoglu's publicism, "Hikmet" newspaper and Azerbaijani press

---

* Doctor of Philosophy in History,
Baku State University, PhD doctorant at the Department of National Press History; Baku, Azerbaijan
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802

**To cite this article:** Garibov, M. [2025]. National-Ideological Views of Ahmet Ağaoğlu in the Newspaper "Hikmet". *“Metafizika” journal, 8*(2), pp.57-66.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.57-66

***Article history:***
*Received: 13.01.2025*
*Accepted: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070.; 930.85.
**ББК:** 76.02; 76.029
**MJ №** 267
10.33864/2617-751X.2025.v8.i2.57-66

# Национально-Идеологические Мнении Ахмеда Агаоглу в Газете «Хикмет»

## Махир Гарибов*

**Абстракт.** Основной целью газеты «Хикмет», издававшейся в Стамбуле в начале XX века, было внесение вклада в «исламское возрождение» путем защиты прав и свобод человека, а также достижение единства, расширения просветительского движения и религиозного единства в Османском и исламском мире. Именно этот акт стал темой статей Ахмеда Бея Агаоглу, одного из главных авторов газеты. В мире его мыслей и идей, его работах и статьях можно увидеть концепции исламизма и тюркизма в рамках таких интеллектуальных течений, как исламизм, тюркизм и западничество, которые сформировались в Османском государстве после Второй конституционной монархии. Формирование этого единства, приверженность национальным и духовным ценностям, верность историческим корням легли в основу его творчества. Агаоглу твердо заявил, что нация является главным и единственным элементом, который строит государство и составляет его основу. Поэтому народ должен иметь все права и возможности для смены правительства. Он призвал турецкий народ продемонстрировать решимость и волю для достижения этих прав и создания общества и национального правительства, основанных на демократических принципах. Агаоглу считал, что спасение общества заключается в объединении вокруг идеи «турецкого единства» и «единства ислама», и в газете он в основном пропагандировал идею национального единства.

**Ключевые слова:** История пресса, национальная пресса и демократия, публицистика Ахмета Агаоглу, газета «Хикмет» и Азербайджанская пресса

---

* Кандидат исторических наук,
Бакинский Государственный Университет, Докторант кафедры История националной прессы; Баку, Азербайджан
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802
**Цитировать статью:** Гарибов, М. [2025]. Национально-Идеологические Мнении Ахмеда Агаоглу в Газете «Хикмет». *Журнал «Metafizika»*, *8*(2), с.57-66.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.57-66

***История статьи:***
*Статья поступила в редакцию:* 13.01.2025
*Отправлена на доработку:* 17.02.2025
*Принята для печати:* 15.04.2025

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070.; 930.85.
**KBT:** 76.02; 76.029
**MJ №** 267
10.33864/2617-751X.2025.v8.i2.57-66

# “Hikmət” Qəzetində Əhməd Ağaoğlunun Milli-İdeoloji Görüşləri

**Mahir Qəribov***

**Abstrakt.** XX əsrin əvvəllərində İstanbulda yayımlanan “Hikmət” qəzetinin əsas məqsədi insan haqq və hüquqlarını müdafiə etməklə “intibah-ı İslam”a töhfə vermək, Osmanlı və İslam dünyasında vəhdətə, maarifçi hərəkatının genişlənməsinə, din birliyinə nail olmaqdı. Qəzatin əsas yazarlarından biri olan Əhməd bəy Ağaoğlunun məqalələrinin mövzusunu da məhz bu amal təşkil edirdi. Onun fikir və düşüncə dünyası, yazdığı əsərlər və maqalələrində İkinci Məşrutiyyətdən sonra Osmanlı dövlətində formalaşan İslamçılıq, Türkçülük və Qərbçilik kimi fikri cərəyanlar içərisində islamçı və türkçü anlayışını görmək mümkündür. Bu vəhdətin formalaşdırılması, milli-mənəvi dəyərlərə bağlılıq, tarixi köklərə sadiqlik, onun yaradıcılığının əsasını təşkil edirdi. Ağaoğlu qətiyyətlə bildirirdi ki, dövləti quran, onun təməlini təşkil edən başlıca və yeganə ünsür millətdir. Bu səbəbdən də, hakimiyyəti dəyişmək üçün xalq bütün hüquq və imkanlara malik olmalıdır. O, türk millətini qətiyyət və iradə göstərərək bu hüquqları əldə etməyə, demokratik pribsiplərlə idarə olunan cəmiyyət və milli bir hökumət qurmağa çağırırdı. Ağaoğlu cəmiyyətin nicatının “Türk birliyi” və “İttihd-ı İslam” ideyası ətrafında birləşmək olduğuna inanır və qəzetdə əsasən milli birlik ideyasını təbliğ edirdi.

**Açar sözlər:** mətbuat tarixi, milli mətbuat və demokratizm, Əhməd Ağaoğlunun publisistikası, “Hikmət” qəzeti və Azərbaycan mətbuatı

---

* Tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti, Milli mətbuat tarixi kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: mahir_garibov@yahoo.com
https://orcid.org/0009-0002-8183-5802

**Məqaləyə istinad:** Qəribov, M. [2025] “Hikmət” Qəzetində Əhməd Ağaoğlunun Milli-İdeoloji Görüşləri. *“Metafizika” jurnalı, 8*(2), səh.57-66.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i2.57-66

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 13.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 17.02.2025*
*Çapa qəbul edilmişdir: 15.04.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

1910-1912-ci illər arasında İstanbulda Şehbenderzadə Filibeli Əhməd Hilmi tərəfindən yetmiş yeddi nömrə çapdan çıxan, həftəlik "Hikmət" qəzeti bütün Osmanlı coğrafiyasını əhatə edən mühüm nəşrlərdən biri idi. "Hikmət" qəzeti öz səhifələrində ədəbiyyatdan tarixə, fəlsəfədən siyasətə qədər bir çox mövzulara yer verir, İslam dünyasının yaşadığı ağrılı hadisələri, Orta Asiya, Qafqazlar, Afrika, Balkan yarmadası və digər coğrafiyadakı yaşananları öz oxucularına çatdırmağa çalışırdı. Qəzetin əsas yazarlarından biri də əslən Qarabağlı, Şuşadan olan Əhməd bəy Ağaoğlu olmuşdur. O, türk-islam mədəniyyəti ilə yanaşı, Qərb fəlsəfəsi və təfəkkürünü dərindən bilirdi. Əhməd bəy qəzetdə yazırdı ki, Avropadan mənimsədiyimiz siyasi institutları davranışlarla deyil, sözdə, ağıl ilə deyil, dildə qəbul edirik. Bizdəki zehniyyət bu prinsiplərin özünü və genişliyini, hikmət və mahiyyətini uyğun şəkildə anlamağa və qavramağa mane olur. Yüz illərdən bəri bütün elm və fənni, hikmət və fəlsəfəni, əxlaq və hüququ, siyasəti, qısası hər şeyi ənənə ilə əlaqəli görmüşük və indi də görməkdə davam edirik. Əhməd bəy üçün hər şeydən öncə, vacib olan türk dünyasının intibahı və tərəqqisinin əsas şərti olan fərdi hüquq və azadlıqları idi. Şərq cəmiyyətində tamamilə tapdanmış və məhv edilmiş insan haqqlarınına əməl olunmasını tələb edən Ə. Ağaoğlu göstərirdi ki, fərdi azadlıqların yoxluğu və insan hüquqlarının dövlət maraqlarına qurban verilməsi Şərq cəmiyyətlərinin gerilik və tənəzzülünün başlıca səbəblərindən biridir. [İrfan Davut ÇAM, "II. MEŞRUTİYET DÖNEMİ..." İzmir 2013, s.48]

Qərbçilik hərəkatı və ona dair yanaşmalar, Qərbdən gələn cərəyanlara mətbuat vasitəsilə tutarlı cavabları, müsəlmanlar arasında birliyin təmin edilməsi üçün təbliğat onun başlıca amalı olmuşdur. Avropa təhsilli olması səbəbiyə Qərb sivilizasiyasının müsbət tərəflərini mənimsəməyin tərəfdarı olan Ağaoğlu, təəssübkeşlik adına Qərbə kor-koranə qarşı çıxanları sərt tənqid edirdi. Onun fikrincə, əsas olan dini hisslər və elmi əsaslar üzərində düşünmək və ondan düzgün nəticə çıxarmaqdır. Əhməd bəy Ağaoğlu əmin idi ki, islam cəmiyyətinin təməlini təşkil edən mənəvi prinsiplər və insanların düşüncə tərzində köklü dəyişikliklər olmadan, Qərb institutları və qurumları müsəlman şərqində sadəcə təqlid ediləcək və bu istənilən nəticəni verməyəcək. Bununla bağlı o yazırdı ki, "*istədiyimiz qədər ana yasalar elan etsək, qanunvericilik məclisləri toplasaq da, madam ki, əsaslar dəyişmir, madam ki, hər birimizin içində bu istibdad üsulu hakimdir, o üsulun doğurduğu izlər evlərimizdə, küçələrimizdə, toplantılarımızda, çalışma tərzimizdə yaşayır, bizim çağdaş cəmiyyətlərlə eyni səviyyədə addımlamağımız mümkünsüzdür*". [Ağaoğlu Ahmet. Üç Medeniyet. İstanbul, 1972, s.38]

Şərqlə Qərb arasında ciddi fərqlərin olduğunu göstərən Əhməd bəy yazırdı: "Birisi şəxsə, digəri isə dövlətə itaətdən ilham alır; birisi hökmdarın

şıltaqlığına, digəri dövlətin qanununa saygı göstərir. Dövlətin hökmdardan ibarət olduğu anlamının qəbul edildiyi bir çevrədə bu baxış tərzi çox təbiidir”. [Ulusoy Nalcıoğlu Belkis,“İttihad ve Terakki yönetimine muhalif bir bakış: Hikmet gazetesi-1912”, s.24]

“Hikmət” qəzeti səkkiz səhifə həcmində çap olunurdu. Ancaq bayramlara görə 25-ci və 35-ci nömrələrdə əlavə dörd səhifə, qırx beşinci sayıda isə on səhifə əlavə nəşr olunmuşdur. Qəzetdəki yazılar səhifə içində üç sütuna bölünərək dərc edilib. Qəzet qısa müddətdə cəmiyyətin bütün təbəqələri tərəfindən maraqla qarşılanıb və abunəçilərin sayı üç minə çatıb. Qəzetə ünvanlanan və dərc olunan məktublardan aydın görmək olur ki, ictimaiyyət nümayəndələri, ziyalılar, mədrəsə və Darüşşafaka tələbələri içində qəzet böyük marağa səbəb olmuşdur.

**2.“Hikmət” qəzetində Əhməd bəy Ağaoğlunun yazı üslubu və mövqeyi**

“Hikmət” qəzeti gündəlik siyasi hadisələrdən uzaq, insanın gözünü açan, cəmiyyətə və İslam dünyasına yol göstərən keyfiyyətli nəşrləri ilə qısa zamanda geniş oxucu kütləsində, islam aləmində böyük rəğbət qazandı. Qəzetin bu nəşr siyasəti ilə yanaşı, Əhməd bəy Ağaoğlunun da üslubunun sadəliyi, “fikirlərində məntiqi dəqiqlik və qüvvət” onun daha geniş dairələrdə, ziyalı auditoriyasında böyük nüfuz sahibi olmasına kömək etdi. Bir sözlə, “Hikmət” qəzetinin müntəzəm nəşr həyatı, yüksək keyfiyyətli çapı, ədəbiyyatdan fəlsəfəyə, siyasətdən dini mövzulara qədər cəmiyyəti maraqlandıran bütün mövzuları işıqlandırması ilə yanaşı, İslam dünyasında bütün insanların problemlərinə eyni həssaslıqla yanaşırdı.

“Hikmət” qəzeti dövrün siyasi cərəyanlarından olan türkçülükdən kənarda qalmamaqla bərabər islamçılıq hərəkatının önəmli nəşrləri sırasındadır. Qəzet hadisələrə yanaşması, ictimai-siyasi, eləcə də ədəbi-fəlsəfi mövzuları işıqlandırması, həlli yolları təklifləri ilə İkinci Məşrutiyyətdən sonrakı dövrün mühüm nəşrləri sırasında öz layiqli yerini tutmuşdur. Qəzetin missiyasına görə Hikmət təkcə Osmanlı sərhədlərinin çatdığı yerlərdə deyil, eyni zamanda dünyanın müxtəlif coğrafiyalarında yaşayan müsəlmanların vəziyyəti ilə bağlı xəbər və məlumatlara diqqət yetirirdi. [Yusuf Akçura,“Türkçülüğün Tarihi”, İstanbul 1944, s.12] Qəzetin “İslam dünyası” başlıqlı yazılarında Mərakeş, Misir, Bolqarıstan, Qafqaz, Rusiya, Əfqanıstan, Türküstan, Hindistan, Kaşqar, Çin, İran kimi ölkələr və Buxara, Nəcəf, Kərbəla və s. şəhərlərdə, həmçinin müxtəlif qitələrdə yaşayan müsəlmanların problemlərinə həssaslıqla yanaşıldığı açıq görünür. Xüsusilə də qəzetin hər sayının son səhifəsində dərc olunan “Bir həftənin hadisəsi” qısaca "Həftənin icmalı" bölməsində Avropa ölkələrinin siyasi oyunları, onların təsir metodları yer alırdı. Ə.Ağaoğlunun yeniləşmə hərəkatına dair irəli sürdüyü təkliflər ilk vaxtlar üzdə birbaşa siyasi xarakter daşımırdı. O, islam aləmindəki problemlərin həlli yollarının siyasi

deyil, daha çox mədəniyyət məsələləri ilə bağlı olduğu fikrini israrla müdafiə edir və bu xüsusda əsasən bir neçə amilin önə çıxarılmasını zəruri sayırdı [Ulusoy Nalcıoğlu Belkis, "İttihad ve Terakki yönetimine muhalif bir bakış: Hikmet gazetesi", s.43].

Əhməd bəy Ağaoğlu ictimai nöqsanların səbəblərini dinin özündən çox, dinlə birlikdə ictimai həyata əngəl olan sosial amillərdə axtarır və mövzuya ilahiyyatçı, dinşünas kimi yox, sosioloq və yazıçı-publisist kimi yanaşır. Bu mövzudakı təhlillərində o, islam dininin mövcud vəziyyətini xristianlığın vaxtilə yaşadığı analoji proseslə müqayisəli təhlili şəklində araşdırır və tənəzzülün dinin mahiyyətindən qaynaqlanmadığına dair analitik mühakimələr yürüdür. Ağaoğlu müsəlman aləmini yüksəldəcək qabiliyyətli gənclərin yalnız sağlam ailələrdə yetişə biləcəyini irəli sürməklə yanaşı bunun təhsilin inkişafı ilə mümkün ola biləcəyini bildirir.

Ə.Ağaoğlu, türk dünyasının dərin böhran və tənəzzüldən qurtulmasının yeganə yolunu Qərbin demokratik dəyərlərinin, ilk növbədə, insan hüquq və azadlıqlarının mənimsənilməsi və yaradıcı şəkildə tətbiqində görürdü. o, Qərbin mütərəqqi ictimai-siyasi və fəlsəfi-estetik düşüncəsi ilə Şərqin ən yaxşı ənənələrinin üzvi sintezinə nail olmağa çalışır, buna görə də, Əhməd bəy türkləri qəlbən şərqli, zəka və düşüncə etibarı ilə isə qərbli olmağa çağırırdı. Üstəlik, o, islama da böyük sayğı ilə yanaşırdı. Ağaoğlu bunun da fərqində idi ki, sürətlə dəyişən çağdaş dünyada islam statik vəziyyətdə qala bilməz. Buna görə o, islamda köklü islahatların aparılması və onun müasir tələblərə uyğunlaşdırılmasını israrla tələb edir, Avropa ölkələrinin bu sahədəki təcrübəsindən yararlanmağı məsləhət görür və həmin ölkələrdə kilsə və ruhani zümrəsinin fəaliyyət dairəsi yalnız dini məsələlərlə məhdudlaşırdı.

**3.Əhməd bəy Ağaoğlunun "Hikmət" qəzetində silsilə yazıları**

"İçtimaiyyətin diqqəti" başlıqlı yazısında Ağaoğlu qeyd edirdi ki, bu məmləkətdə istibdad və hökmranlığın mütləqliyi kimi şərt və sizin üçün hiylə yoxdur. "Hikmət" qəzetindəki yazıları bütün müsəlmanların səsi, dünyanın hər yerindən ucalan fəryadı dinləməyi özünə borc bilən biri kimi çıxış edirdi. Əhməd bəy, Qərb dəyərlərinin və hər şeydən öncə insan haqqları və demokratik azadlıqların mənimsənilib real praktikada tətbiqinə, dünyada fərqli mədəniyyətlər arasında başlanmış amansız rəqabət şəraitində türklərin milli kimliyinin qorunub saxlanmasının yeganə vasitəsi kimi baxırdı. O, yazırdı ki, bəziləri Avropa mədəniyyətinin mənimsənilməsində nöqsanlı və qəbuledilməz tərəflərdən qurtulmaq niyyətilə o mədəniyyətin bir süzgəcdən keçirilməsini istəyirlər. Halbuki, bir mədəniyyət zümrəsi bölünməz bir bütündür, parçalana bilməz. Qalibiyyət və üstünlüyü qazanan onun bütünlüyüdür. Əhməd Ağaoğlunun fikrincə, Avropa mədəniyyəti yalnız elm və texnikası ilə deyil bütünlüyü, ümumi əlamətləri, xüsusiyyətləri, bütün nöqsanları və fəzilətləri ilə

qələbə çalmışdır [Ağaoğlu, A. "İçtimaiyyətin diqqəti", "Hikmet" Gazetesi, İstanbul 1911, S. 57, s.3].

Əhməd bəy türk milləti və dövlətçiliyinin gələcək rifahı və uğurunu demokratik inkişafda görürdü. Bu baxımdan, O, böyük türkçü, yenilməz bir milliyyətçi və demokrat idi. Onun həyatının yeganə və dəyişməz məqsədi, türk dünyasını sistemli böhrandan qurtararaq, onu davamlı inkişaf yoluna çıxarmaq idi.

**4.Ağaoğlunun "Hikmət" qəzetində Rusiya və Osmanlı dövləti ilə bağlı yazıları**

"Hikmət" qəzetinin 59-cu sayında "Rusiyanın məqsədi" başlıqlı məqaləsində Ağaoğlu Rusiyanın əlində olan torpaqların çoxunun orta əsrlər dövründə türklərə aid olduğunu, hətta rusların əsas siyasətinin qeyri-rusları ruslaşdırmaq, Rusiyada yalnız pravoslav xristian təriqətini hakim zümrə halına gətirmək, slavyan xalqları rus irqinə tabe etdirmək və yalnız rus dilini dominant dil etmək olduğunu bildirirdi. ["Hikmet" Gazetesi, İstanbul 1911, S. 59, s.5].

Qəzetin 69-cu nömrəsindəki "İslam dünyası" məqaləsində isə o, bütün müsəlmanlara və din xadimlərinə müraciət edərək, onların məsuliyyətlərini dərk etməyə, günün cihad, müsəlmanlara kömək günü olduğunu xatırladır. Milli və dini birlik, mədəni tərəqqiyə nail olmaqla yanaşı, orta əsr geriliyinə, mövhumat və fanatizmə son verməyi, müasir elmi yeniliklərə diqət yetirməyi irəli sürür [Ağaoğlu A."İslam dünyası","Hikmet" Gazetesi, İstanbul 1911, S. 59, s.6].

Ağaoğlunun yazılarında dövrün siyasi məsələlərinə baxışı və bu məsələlərə verdiyi şərhlər, həmdə təkcə o gün üçün yox, bugünkü insanlar, müsəlmanlar üçün də əhəmiyyətli prinsiplər kimidir. Ağaoğlu müsəlman xalqlarının dirçəlişi məsələsində "Gənc türklər"in bütövlükdə doğru yol tutduqlarını qəbul etməklə yanaşı, əsasən iki məsələdə:

1) Avropa ideyalarını ifrat şəkildə təqlid etdiklərinə;

2) islamçılığın elmi nəzəriyyəsi yaranmadan onu siyasiləşdirdiklərinə, yəni siyasi partiya halına gətirdiklərinə görə onlarla razılaşmırdı.

O, yazır: "*Bəziləri düşünürlər ki, bütün fəlakətlərin səbəbi müsəlmanların geriliyindən, onların dininin həyat uğrunda mübarizəyə yararsız olmasından irəli gəlir və bu vəziyyəti aradan qaldırmaq üçün bütün həyat quruluşunu dəyişdirmək, Avropanı təqlidə başlamaq lazımdır. Beləlləri Avropa təsisatının qüvvəsinə hədsiz inamla yanaşaraq onu yoxlamadan, saf-çürük edib araşdırmadan, ölkələrində tətbiq etməyin zəruriliyi haqqında moizələr oxuyurlar*" [Ulusoy Nalcıoğlu Belkis, "İttihad ve Terakki yönetimine muhalif bir bakış: Hikmet gazetesi", s.82].

Ə.Ağaoğluna görə, tərəqqiçilərdən bəziləri ("Gənc türklər") siyasi məsələlərə qarışmaqla bütün Şərqin inkişafına maneçilik yaratdılar: "Hərəkat

həqiqi obyektivlik və rasionallığını itirdi, siyasiləşdi, partiyalaşdı və arxalandığı xalqı qeyb etdi" [1, s.336]. Buradan belə nəticə çıxarmaq olar ki, Ağaoğlu ümumilikdə, yeni dövrdə tərəqqiçilərin başladıqları yeniləşmə hərəkatını müs bət dəyərləndirmiş, ancaq onun elmi-nəzəri əsasları yaranmadan, ən azı müəyyən bir mərhələ keçmədən siyasiləşməsini doğru hesab etməmişdir. Bu baxımdan, onun fikrincə, Türkiyədə yenilikçi Midhət Paşanın və onun davamçıları olan tərəqqiçilərin ideyalarının türk xalqları arasında özünə geniş tərəfdar kütləsi tapmamasının başlıca səbəbi onun elmi nəzəriyyəsi yaranmadan siyasətdən qaynaqlanması olmuşdur.

Daxildə və xaricdə bir çox siyasi hadisələrin getdiyi, Tripolinin İtalyanlar tərəfindən işğalının başlandığı bir vaxtda, 1911-ci il sentyabrın 21-də dərc olunan "Açıq istəklər" başlıqlı yazıya görə qəzetin fəaliyyəti on ay dayandırılır.

**5.Nəticə**

Əhməd bəy Ağaoğlu XX əsrin əvvəllərində inqilablar səbəbiylə Osmanlı coğrafiyasının, özəlliklə də Qafqaz bölgəsinin aktiv hərəkətdə olduğu bir dövrdə həm əsərləri həm də "Hikmət" qəzetindəki məqalələri ilə Osmanlı sərhədləri daxilində yaşayan xalqları milli birlik siyasətinə, bir ideya ətrafında birləşməyə dəvət edir, milli-dini birliyə, vəhdətə nail olmaq üçün bir-birindən dəyərli yazılar yazırdı. İsmayıl bəy Qaspralının dediyi kimi Ağaoğlu qələmi mürəkkəbə deyil, ürəyinin qanına batırır, xalqı, milləti, vətəni üçün vacib olan öz ürək sözlərini yazırdı.

Ağaoğlu qəzetin 72-ci sayında "İcmal-ı siyasi" bölməsində dərc olunan məqaləsində, o, Osmanlı dövlətinin "Hilafeti İslamiyyenin nüfûzu azm-i manevisi bütün nazarı hars ve istilaları aləmi İslama matuf olan Avrupa devletlərinin ebedi kabusudur" kimi qeyd edir. O, yazır ki, millətə rəhbərlik edən onun əməl və arzularına tərcüman olan zümrə ziyalılardır. "Bu məzlum, təşkilatca zəif, mədəniyyətcə avam, daimi suurətdə əsarətə, qul olmağa məhkum olan Şərqin halı Qərbin üzərinədə fəna bir surətdə əks etmiş olur. Zira zəif Şərqi istismar altına alan Qərb imperialistləri Qərb zəhmətkeşlərini də istismar altına alıb boğmağa imkan qazanırlar və bu da ümumbəşəriyyət ailəsi arasında yaxın bir uyğunluq vücuda gətirir. Biz Şərq millətləri bütün mövcudiyyətimiz ilə bu ideala ittihaq edəcək və Şərq naminə onun vücuda gəlməsinə xidmət etməliyiz. Ələlxüsus İslam Şərqi onu qəbul edəcəkdir və bütün Asiyanı, Afrikanı öz arxasınca apararaq bütün Qərbi də onun qarşısında səcdə etməyə məcbur edəcək, zəhmətkeş sinfi əsarətə alan yeganə vəsaiti-imperalistlərdən onu xilas edəcəkdir." [Ağaoğlu.A."İcmal-ı siyasi", "Hikmet" Gazetesi, İstanbul 1911, S,72, s.5].

Xaricilər tərəfindən ortaya atılmış "panislamizm" termini, siyasi bir anlayış olmasına baxmayaraq, Ə.Ağaoğlu bunu, müsəlman-türk dünyasının oyanışı və

inkişafı uğrunda mübarizə aparan qüvvələrə verilmiş ad kimi qəbul etmişdi. Bu səbəblə ki, Ə.Ağaoğlunun “panislamizm” anlayışına ilk dövrlərdə, bu cür münasibəti sonralar, həmin məfhumun “İslam birliyi” uğrunda mübarizə aparan bütün qüvvələrə verilmiş ümumi siyasi-ideoloji bir ada çevrilməsində müəyyən rolu da olmuşdu. O, sonralar bu anlayış ətrafında Avropa, o cümlədən Rusiya millətçilərinin yaratdığı mənfi obrazı aradan qaldırmaq üçün qeyd edirdi ki, “müsəlmanlar qardaşdırlar” prinsipini irəli sürən İslam, müsəlmanlar arasında qardaşlığa, ittifaqa və ittihada əsaslanır [Faiq Ələkbərov, “Əhməd bəy Ağaoğlunun dini-siyasi və müasirlik görüşləri”, Doğumunun 150. Yılında Türk Dünyasının Görkemli İctimai Siyasi Hadimi Ahmet Ağaoğlu Sempozyumu, İstanbul 2019, s.127]. Əhməd bəy Ağaoğlunun fikrincə, Osmanlı İmperiyasının tərəqqisi onun İslam dünyasının lideri və şərqin yüksəliş ümidi olduğunu göstərir və bunu deməklə, belə möhtəşəm bir gücün, Türk-İslam birliyinin digər ölkələr üçün nə demək olduğunu açıq şəkildə izah edir. Ağaoğlunun yaratdığı əsərlər, yazdığı məqalələr, irəli sürdüyü ideyalar müasir dövrdə türk dünyası və bütövlükdə bəşəriyyət üçün öz dəyrərli töhfələrini verməkdədir.

## ƏDƏBİYYAT

1. Çam, İ. D. (2013). *II. Meşrutiyet dönemi Garpçılık fikrinin Cumhuriyet'in düşünsel temellerine ve eğitime etkileri* (Master’s thesis). İzmir, 285 s.
2. Ağaoğlu, A. (1972). *Üç medeniyet.* İstanbul, 140 s.
3. Nalcıoğlu, B. U. (2018). *İttihad ve Terakki yönetimine muhalif bir bakış: Hikmet gazetesi.* Ankara, 244 s.
4. Ağaoğlu, A. (1911). İçtimaiyyətin diqqəti. *Hikmet Gazetesi*, İstanbul, s. 57.
5. Koçak, A. (2012). Bir Balkan muhaciri: Filibeli Ahmed Hilmi ve “Hikmet” gazetesinde Balkanlar. *Akademi Dergisi*, İstanbul, s. 264.
6. Ağaoğlu, A. (1911). Rusiyanın məqsədi. *Hikmet Gazetesi*, İstanbul, s. 59.
7. Ağaoğlu, A. (1911). İslam dünyası. *Hikmet Gazetesi*, İstanbul, s. 69.
8. Ağaoğlu, A. (1911). İcmal-ı siyasi. *Hikmet Gazetesi*, İstanbul, s. 72.
9. Akçura, Y. (1944). *Türkçülüyün tarihi.* İstanbul, 270 s.
10. Ələkbərov, F. (2019). Əhməd bəy Ağaoğlunun dini-siyasi və müasirlik görüşləri. *Doğumunun 150. Yılında Türk Dünyasının Görkemli İctimai Siyasi Hadimi Ahmet Ağaoğlu Sempozyumu*, İstanbul, 480 s.

## REFERENCES

1. Cam, I. D. (2013). *The influence of the Second Constitutional Era's Westernization thought on the intellectual foundations of the Republic and education* (Master’s thesis). Izmir, 285 p. (in Turkish)
2. Agaoglu, A. (1972). *Three civilizations.* Istanbul, 140 p. (in Turkish)

**3.** Nalcioglu, B. U. (2018). *A critical perspective on the administration of the Committee of Union and Progress: Hikmet newspaper.* Ankara, 244 p. (in Turkish)
**4.** Agaoglu, A. (1911). Attention of society. *Hikmet Newspaper*, Istanbul, p.57. (in Azerbaijani)
**5.** Kocak, A. (2012). A Balkan immigrant: Filibeli Ahmed Hilmi and the Balkans in the "Hikmet" newspaper. *Akademi Journal*, Istanbul, p.264. (in Turkish)
**6.** Agaoglu, A. (1911). Russia's goal. *Hikmet Newspaper*, Istanbul, p.59. (in Azerbaijani)
**7.** Agaoglu, A. (1911). The Islamic world. *Hikmet Newspaper*, Istanbul, p.69. (in Azerbaijani)
**8.** Agaoglu, A. (1911). Political summary. *Hikmet Newspaper*, Istanbul, p.72. (in Azerbaijani)
**9.** Akcura, Y. (1944). *History of Turkism.* Istanbul, 270 p. (in Turkish)
**10.** Alekberov, F. (2019). The religious-political and modernity views of Ahmet Bey Agaoglu. *Symposium on the 150th Anniversary of the Prominent Public and Political Figure of the Turkic World, Ahmet Agaoglu,* Istanbul, 480 p. (in Azerbaijani)